

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Qayıdışdan Qurtuluşa, Qurtuluşdan Zəfərə



3

SƏS
№ 105 (7030)
13 iyun 2024-cü il.
Qiyməti 60 qəpik

# Şuşalılar Böyük Qayıdış sevincini yenidən yaşadılar



2

Şuşa şəhərində 126 ailənin - 491 nəfərin daimi məskunlaşması təmin edilib

# Ermənistanda SEÇKİ KABUSU



6

## Qohumla ona görə evlənmək olmaz ki...



7

## 15 iyun Milli Qurtuluş Günü - Zəfər tariximizin başlanğıcıdır



5

## Hansı hallarda cinayət işinin başlanması qanunsuzdur?



16

## "COP29-un özünəməxsus tələbləri var"





11

## Media müharibəsi



14

# Şuşalılar Böyük Qayıdış sevincini yenidən yaşadılar

## *Şuşa şəhərində 126 ailənin - 491 nəfərin daimi məskunlaşması təmin edilib*

Böyük Qayıdış konsepsiyasına uyğun olaraq işğaldan azad olunan ərazilərimiz bu gün yeni dövrünə qədəm qoyub. Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir və burada reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, bu ərazilər yenidən dirçəlir, inkişaf edir, geniş abadlıq və quruculuq meydanına çevrilib. 2020-ci ildə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələrinin qısa müddət ərzində Ermənistanın 30 il ərzində havadarlarının dəstəyi ilə qurduğu ordusunu darmadağın etdi. Noyabrın 10-da Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri birgə bəyanat imzalandılar və bu mahiyyət etibarilə Ermənistanın kapitulyasiyası idi. Döyüş meydanında məğlubiyyətini dərk edən Ermənistan Prezident İlham Əliyevin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etdi və kapitulyasiya şərtlərinə razılığını verdi. "Müharibədə qalib gəlmək mənim həyatımın, siyasi həyatımın missiyası idi. Müharibə də uğurla başa çatdı", - deyə Prezident çıxışlarının birində bildirmişdir.





Şuşanın da işğalına 28 ildən sonra son qoyuldu. "Şuşanın - alınmaz qalanın alınması ayrıca bir qəhrəmanlıq dastanıdır", - deyən Cənab Prezident vurğulayıb ki, Şuşada olan hər bir insan və artıq Şuşaya gələn Azərbaycan vətəndaşları görürlər ki, Şuşanı götürmək, işğaldan azad etmək böyük qəhrəmanlıq, şücaət, fədakarlıq tələb edirdi: "Bizim qəhrəman hərbçilərimiz bu sıldırım qayalara dırmaşaraq əlbəyaxa döyüşdə Şuşanı işğalçılardan azad etdi. Baxmayaraq ki, işğalçılar bizə qarşı tanklardan, toplardan atəş açırdılar. Biz Şuşa uğrunda gedən döyüşlərdə şəhidlər verdik. Ancaq bizi irəliyə aparan milli ruh bu Qələbəni təmin etdi. Şuşanın azad edilməsi faktiki olaraq Ermənistan ordusunun və Ermənistan dövlətinin çökməsi demək idi". Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi. Artıq Azərbaycanın işğalda olan torpaqları azaddır və Qarabağ Azərbaycandır!!!

### 21 AİLƏ OLMAQLA, 85 NƏFƏR ŞUŞA SAKİNİ DOĞMA YURDUNA QOVUŞDU

Bu gün Şuşa öz əzəli sakinlərini alnı-açıq şəkildə qarşılayır. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Böyük Qayıdış çərçivəsində keçmiş məcburi köçkünlərin Şuşa şəhərinə qayıdışı davam edir. 12 iyun tarixində növbəti köç karvanı Şuşaya çatdı. 21 ailə olmaqla, 85 nəfər Şuşa sakini doğma yurduna qovuşdu. Ailələr sevinc hissi ilə mənzillərinin açarlarını təhvil alaraq, yeni evlərində məskunlaşıblar. Bununla da Şuşa şəhərində 126 ailənin, yəni 491 nəfərin daimi məskunlaşması təmin edilib.

### Şuşa şəhəri yenidən ənənələrini bərpa edərək yeni dövrünü yaşayır

Bu gün Şuşada görülən işlərin miqyası çoxdur. Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin, tarixi və dini abidələrin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Şuşada Gövhərağa məscidinin bərpası Azərbaycanın öz dərəylərinə milli-mənəvi islami dəyərlərinə olan ehtiramın nümunəsidir. Dövlət başçısının bildirdiyi kimi, bundan sonra biz Şuşada əbədi yaşayacağıq və Şuşanın bərpa edilməsi artıq başlanmışdır. Verilən göstərişlər yerinə yetirilir. Qeyd edək ki, Heydər Əliyev Fondunun Qarabağdakı bərpa layihələrinin bir hissəsi isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində həyata keçirilir. Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra Mehmandarovların malikanə kompleksi açılıb. Mehmandarovların malikanə kompleksində, ərazidəki ailə məscidi və bulaqda təmir-bərpa işləri aparılıb, bulağın damı əvvəlki vəziyyətinə gətirilib. Bunların sırasına dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin bütövlükdə yenidən qurulması, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması və digərləri daxildir. Bütün bunlarla yanaşı, Şuşada Yaradıcılıq Mərkəzinin Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra açılışı olub. Şuşa şəhərindəki Yaradıcılıq Mərkəzinin hazırkı binası ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısındadır. Azad Şuşamız hər gün dəyişir və gözəlləşir.



### ŞUŞANIN BAŞ PLANI - TARİXLƏ MÜASİRLİYİN VƏHDƏTİ

Bütün bu və ya digər tarix, mədəniyyət abidələrinin təmir və bərpası ilə yanaşı, dövlət başçısı tərəfindən Şuşada 17 binadan ibarət 2-ci yaşayış kompleksinin də təməli qoyulub. Şuşa şəhərinin Baş planına uyğun olaraq, D4 zonasında 4,25 hektar ərazidə inşa ediləcək kompleksdə ikimərtəbəli və üçmərtəbəli binalar tikiləcək. Kompleksdəki 238 mənzildən 119-u ikiotaqlı, 119-u isə üçotaqlı olacaq. Bu yaşayış kompleksində sakinlərin rahatlığı üçün hər cür şərait yaradılacaq, istirahət, idman, uşaq əyləncə sahələri istifadəyə veriləcək, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Şuşanın Baş planı hazırlanarkən orada həyata keçirilən bütün layihələrin tarixlə müasirliyin vəhdəti üzərində qurulması nəzərə alınıb. Baş planda Şuşada orta, yüksək və qarışıq sıxlıqlı yaşayış binalarının inşası, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binaların və abidələrin yerləri əksini tapıb. Hazırda Baş plan əsasında Şuşada bərpa və yenidənqurma işləri davam etdirilir. Tarixi məhəllələr çoxdur. Əlbəttə, bütün bu işlərə başlamaq üçün, cənab Prezidentin göstərişi ilə əvvəlcə Zəfər yolu, tunellər tikildi. Yeni Baş plana uyğun olaraq, tarixi ərazidə müasir kiçik evlər olacaq. Şəhər məktəbi artıq tikilib və sentyabrda öz şagirdlərini qəbul etməyə hazırdır, 300-ə yaxın şagird burada təhsil alacaq. Şəhər xəstəxanası isə 90 çarpayılıqdır. Payıza qədər onun tikintisi başa çatacaq.

### BU İLİN SONUNA QƏDƏR 20 MİN KEÇMİŞ KÖÇKÜN ƏZƏLİ YURDA QAYIDACAQ

İşğaldan azad olunan ərazilərin bərpası və Böyük Qayıdışın yüksək səviyyədə təmin edilməsi məqsədi ilə ardıcıl görülən işlər çərçivəsində yolların yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı sərəncamlar əsasında yol infrastrukturunun təzələnməsi daha da sürətləndirilir. Təbii ki, avtomobil yolları hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır. Rayonlar, kəndlər və qəsəbələrarası avtomobil yolu layihələrinin icrası uğurla həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında Əhmədbəyli-Füzuli-Şuşa magistral avtomobil yolunun 66-81-ci kilometrliyində görülən işlər də bu sıradadır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən olan Füzuli-Hadrut avtomobil yolunun tikintisi sürətlə və keyfiyyətlə yerinə yetirilib. Bu yol başlanğıcını "Zəfər yolu"ndan götürür və yeni inşa edilən Şükürbəyli-Cəbrayıl-Hadrut avtomobil yoluna birləşir. Böyük Qayıdışımız uğurla yerinə yetirilir. Artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. Zəngilan rayonu Ağalı kəndində canlı həyat yaşanılır, Tərtərin Talış kəndinə, Füzuliyə, eləcə də Laçına köçlər yola salınıb. İnsanların doğma yerlərdən səsləri eşdilir. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. "Müharibədən cəmi üç il yarım vaxt keçib, artıq 6 min keçmiş köçkün öz dədə-baba torpağına qayıdıb və bu proses davam etdirilir. Bu ilin sonuna qədər 20 min köçkün qayıdacaq və hər qayıdan insan Azərbaycan Ordusuna, Azərbaycan rəhbərliyinə minnətdarlıq hissi ilə qayıdır, şəhidlərə Allahdan rəhmət diləmək sözləri ilə qayıdır", - deyə Azərbaycan Prezidenti bildirib.

### DÖVLƏT PROQRAMINA ƏSASƏN, CƏBRAYIL, QUBADLI VƏ ZƏNGİLANA 40 MİN NƏFƏR KÖÇƏCƏK

Müvafiq Dövlət Proqramına əsasən, 2022-2026-cı illərdə Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarında 24 kənd, 5 qəsəbə və 3 şəhərin inşası planlaşdırılır. Hazırda Cəbrayıl şəhərində 712 mənzildən ibarət böyük bir kompleks artıq tikilir və 2 aydan sonra onun bir hissəsi təhvil veriləcək. Həmin bu kompleksə Cəbrayıl şəhərinin sakinləri qayıdacaqlar. Cəbrayıl rayonundakı kompleksə 712 ailənin köçürülməsi nəzərdə tutulur. Hazırda Zəngilanda da böyük abadlıq-quruculuq işləri görülür. 13 binadan ibarət bir kompleks tikilir və sakinlərin 2024-2026-cı illərdə ora köçürülməsi planlaşdırılır. Rayonun Cahangirbəyli kəndində də hazırda tikinti işləri həyata keçirilir. Həmçinin 2024-2026-cı illərdə Cəbrayıl rayonunun Xorovlu qəsəbəsinə, Qubadlı rayonunun Mahruzlu və Zilanlı kəndlərində də artıq tikintilər başlanılıb və həmin bu kəndlərə də köç nəzərdə tutulur. "2022-2026-cı illər üzrə Dövlət proqramı"na əsasən, Cəbrayıl, Qubadlı və Zəngilana 40 min nəfər köçəcək. Bu proses mərhələli şəkildə həyata keçiriləcək. Ümumiyyətlə, işğaldan azad olunmuş ərazilər yaşıl zona elan edilib və bunun sayəsində bütün inzibati binalarda, qeyri-yaşayış sahələrinin üstündə günəş panelləri istifadə olunur.

***Zümrüd BAYRAMOVA***

# Qayıdışdan Qurtuluşa, Qurtuluşdan Zəfərə

Azərbaycanın dövlətçilik tarixində çox mühüm əhəmiyyətə malik günlərdən biri 1993-cü ilin 15 iyunudur. Həmin gün Ulu Öndər Heydər Əliyevin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə Qayıdışı xalqımızın taleyində Qurtuluş yolunun başlanğıcı oldu. 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması barədə imzalanan Sərəncamda deyilirdi: Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı - Milli Qurtuluş Günü kimi qeyd edir. Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Heydər Əliyev ona görə Azərbaycanın rəmzinə çevrilmişdir ki, öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.





Tarixi faktlara nəzər salarkən görmək olur ki, Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Xalqın taleyinin bu mərhələsində - azadlıq və müstəqillik duyğularının artdığı illərdə Ulu Öndər həmin duyğuları alovlandırdı ki, bu da illər sonra müstəqilliyimizin bərpası ilə nəticələndi.

## Ümummilli Lider Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi...

90-cı illərdə ölkəyə rəhbərlik edənlərin siyasi səriştəsizliyi, idarəçilik qabiliyyətinin olmaması Azərbaycanın mövcudluğunu, sözün həqiqi mənasında, sual altında qoymuşdu. Xaos, anarxiya, özbaşınalıq, torpaqlarımızın işğal olunması xalqımıza müstəqilliyin sevincini yaşamaq imkanı verməmişdi. Belə çətin və mürəkkəb bir dövrdə Azərbaycan xalqı üzünü Ulu Öndər Heydər Əliyevə tutaraq öz varlığını təmin etdi.

"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən Ümummilli Lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı: "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz".

Dahi şəxsiyyətin müdrik siyasətinin nəticəsi idi ki, ölkəmiz bir dövlət kimi dünya xəritəsindən silinmək təhlükəsindən xilas oldu, müstəqilliyini qorudu, respublikada tüğyan edən ictimai-siyasi böhran aradan qaldırıldı və inkişafın təməli qoyuldu.

1990-cı ilin yanvar ayında Azərbaycanın ayrı-ayrı rayonlarının, eləcə də Naxçıvanın sərhədlərində ermənilər tərəfindən münaqişələr törədilirdi. Yanvar ayının 18-də keçmiş SSRİ-nin Daxili Qoşunlarının iştirakı ilə Naxçıvanın Kərki kəndi işğal olunmuşdu. Ermənilərin Sədərək istiqamətində mütəmadi hücumları başlamışdı və vəziyyət gündən-günə gərginləşirdi. Yanvarın 20-də Bakıda törədilən faciə ilə Naxçıvanın sərhədlərində münaqişələrin başlanmasının üst-üstə düşməsi isə ermənilərin havadarlarının əvvəlcədən hazırladığı böyük plan üzrə cərəyan edirdi. Belə ki, burada məqsəd diqqətin Bakı hadisələrinə yönəlməsi fonunda Naxçıvanın əhalisi arasında ümidsizlik yaradaraq bölgənin boşaldılması və erməni işğalı üçün şəraitin yaradılması idi. Digər tərəfdən isə Naxçıvanı ölkənin paytaxtı ilə birləşdirən yollarda da ermənilər tərəfindən münaqişə törədilir, Bakı-Naxçıvan qatarları dayandırılır, günlərlə işləmir, maşinistlərə qarşı vəhşiliklər edilirdi. Naxçıvan blokada vəziyyətinə salınırdı.

Bütün bu əməllərin arxasında kimin olduğu, kimin planı və gücü ilə həyata keçirilməsi 20 Yanvar hadisəsindən sonra Naxçıvana qayıdan və burada yaşayan Ulu Öndərə gün kimi aydın idi. Elə buna görə də Ali Məclisin 14 dekabr 1990-cı il tarixdə keçirilən sessiyasında yeni ittifaq müqaviləsinə münasibət məsələsi müzakirə olunarkən məsələ ilə bağlı çıxış edən Ulu Öndər Heydər Əliyev deyirdi: "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır..."

Beləliklə, Ulu Öndər 1990-cı ildə Naxçıvana qayıtmasaydı, Naxçıvan indi yox idi. Qədim diyar həmin illərin qurbanı olmuş, Qarabağ kimi işğal edilmiş, naxçıvanlılar isə aclıq-səfalət içərisində məhv olmuşdular. Heydər Əliyevin Naxçıvana gəlməsi ermənilər tərəfindən sərhədlərində müharibə aparılan və blokadaya salınan diyarın xilası oldu. Və son 30 ildə Naxçıvanın inkişafı da 1990-cı illərdə Ulu Öndər tərəfindən həyata keçirilən və gələcəyə hesablanmış tədbirlərin nəticəsində reallaşmışdır. Bununla əlaqədar Prezident cənab İlham Əliyevin də dəyərli fikirlərini xatırlamaq yerinə düşər: "Naxçıvan strateji yerdə yerləşir, ölkəmizin təhlükəsizliyi, inkişafı üçün xüsusi rol oynayır. Naxçıvanın uğurlu inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər sovet dövründə də daim Naxçıvana böyük diqqət göstərmişdir və o vaxt respublikanın inkişafı üçün çox böyük işlər görülmüşdür. 1990-cı illərin əvvəllərində - Naxçıvan üçün ən ağır illərdə Ulu Öndər naxçıvanlılarla birlikdə burada çox ağır şəraitdə Naxçıvanı böyük bəlalardan qurtara bilmişdir. Biz hamımız o illəri yaxşı xatırlayırıq, bilirik ki, bizim mənfur düşmənlərimizin niyyəti, eyni zamanda, Naxçıvanı da işğal etməkdən ibarət idi. Naxçıvana qarşı onlar silahlı hücumlar təşkil edirdilər. Ancaq naxçıvanlılar Ulu Öndərin ətrafında sıx birləşərək düşmənə layiqli cavab verib onları yerinə oturtmuşlar".

## Müstəqilliyimizi xilas edən Böyük Şəxsiyyət

Azərbaycan tarixini, xüsusilə də bu tarixin hər birimizə yaxın olan mücadilə və mübarizələrlə dolu XX əsr səhifələrini vərəqləyərkən gözlərimiz qarşısında müstəqillik yolunda axıdılan qanlar, itirdik-lərimiz canlandıqca, düşünürsən ki, müstəqil olmaq heç də asan deyilmiş. Müstəqilliyi əldə etdikdən sonrakı dövrə nəzər salarkən ona uzanan əlləri, gözü götürməyənlərin təxribatlarını göréndə isə belə bir qənaətə gəlirsən ki, həqiqətən də, müstəqilliyi qorumaq onu qazanmaqdan dəfələrlə çətin imiş.




Məlumdur ki, 1991-ci ildə bərpa etdiyimiz müstəqillikdən sonra ölkəmiz yenə də gərgin ziddiyyətlərlə üz-üzə dayanmışdı. 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin məhvi üçün hazırlanmış plan və ssenarilərlə 1991-ci ildəki müstəqilliyin iflası üçün hazırlanmış planlar tamamilə eynilik təşkil edirdi. Belə bir dövrdə müstəqilliyimizi yenidən itirmək təhlükəsi qarşısında qalmışdıq.

Zaman sübut etdi ki, Ümummilli Lider Heydər Əliyev o zaman Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi eynilə cümhuriyyət dövründəki kimi olacaqdı.

Ardı Səh. 4

# Qayıdışdan Qurtuluşa, Qurtuluşdan Zəfərə

Əvvəli Səh. 3

Bəli, böyük çətinliklə bərpa olunan müstəqilliyimiz Ulu Öndərin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə möhkəmləndirildi, əbədilik qazandı. Böyük Heydər Əliyevin rəhbərliyi ilə hələ 1990-1993-cü illərdə Naxçıvandan başlanan müstəqillik yolu Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilib milli dövlətçiliyimizin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı.

Ulu Öndərin mənəvi və siyasi varisi, daim Heydər Əliyev siyasətindən bəhrələnən və fəaliyyətini bu dahi insanın təcrübələrinə istinad etməklə quran dövlət başçısı cənab İlham Əliyev deyir: Biz Ulu Öndərin rəhbərliyi ilə çox ciddi iqtisadi islahatlara start verdik. İqtisadiyyatın bazar iqtisadiyyatı prinsipləri əsasında qurulması məhz o illərdə öz əksini tapmışdır. Azərbaycanın gələcəkdə dünyəvi dövlət kimi inkişafı məhz o illərdə təsbit edilmişdir. Bizim xarici siyasətimizlə milli maraqlar üzərində apardığımız işlər məhz o illərdə xalqa təqdim edilmiş və xalq tərəfindən dəstəklənmişdir. Bir çox başqa sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində atılan addımlar bir neçə ildən sonra imkan verdi ki, biz doğrudan da güclü və nizami ordu yaradaq. Bu gün bütün Azərbaycan xalqı Ordumuzla fəxr edir. Yəni, bu tarixi addımlar ölkəmizin uzunmüddətli strateji inkişaf modelini özündə ehtiva edirdi. Əlbəttə ki, bütün planlarımızı həyata keçirmək üçün bizim güclü maliyyə imkanlarımız olmalı idi. Yaxşı başa düşürdük ki, xarici sərmayələr gəlmədən buna nail olmaq mümkün deyil. Xarici sərmayələrin ölkəyə qoyulması üçün də ilk növbədə sabitlik olmalı idi və bu sabitlik yaradıldı. O ölkədə ki, 1991-1993-cü illərdə Azərbaycan xalqı faktiki olaraq sabitlik nədir bilmirdi. Qanunsuz silahlı birləşmələr






meydan oxuyurdu, Bakı və digər şəhərlərin küçələrində əli avtomatlı insanlar faktiki olaraq hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, onun cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi və xarici sərmayələr də ondan sonra dərhal gəlməyə başlamışdır. Məşhur "Əsrin kontraktı" və neft-qaz sahəsində ondan sonra aparılan işlər o vaxt güclü maliyyə zəmini yaratdı. O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə müstəqil ölkə kimi özümüzü təsdiqləyək.

## Qayıdış inkişafın başlanğıcı oldu

Görkəmli dövlət xadiminin ali hakimiyyətə qayıdışı ilə ölkəmizdə mühüm işlər görüldü. Qısa müddətdə daxili sabitlik bərpa edildi, cəbhədə atəşkəsə nail olundu, hüquqi-demokratik dövlət quruculuğu istiqamətində potensial baza yaradıldı. Eyni zamanda iqtisadi sahədə mühüm addımlar atıldı, xarici neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalandı, nəticədə, Azərbaycanın iqtisadi inkişafını şərtləndirən layihələrin həyata keçirilməsinə başlanıldı.

Ulu öndərin rəhbərliyi ilə Azərbaycan qədim İpək Yolunun bərpası, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz xətlərinin çəkilişi kimi qlobal layihələrin fəal iştirakçısına və təşəbbüskarına çevrildi. Bununla da Azərbaycanın bugünkü və gələcək uğurlarının möhkəm təməli qoyuldu. Ümumilikdə, Azərbaycan dünya iqtisadi sistemində öz layiqli yerini tutdu, beynəlxalq təşkilatlarda uğurla təmsil olundu, dünyada etibarlı tərəfdaş kimi tanındı, ikitərəfli və çoxtərəfli münasibətlərini uğurla inkişaf etdirdi.

Bununla bərabər, ölkəmizin beynəlxalq təşkilatlarla əlaqəsi təmin olundu, müasir hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiya qəbul edildi. Nəticədə, çox qısa müddətdə müstəqil Azərbaycan özünün sosial, iqtisadi, siyasi və mədəni həyatında ciddi uğurlar qazandı.

Ulu Öndər Heydər Əliyevin parlaq ideyalarını layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev siyasi fəaliyyətini ölkəmizin heç bir güc mərkəzindən asılı olmayaraq, müstəqil siyasət aparmasına, hər bir sahədə xalqın mənafeyinin qorunmasına həsr etmişdir. Məhz bunun nəticəsidir ki, Azərbaycan ötən dövrdə Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz, TANAP, TAP kimi nəhəng iqtisadi layihələrlə bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasına böyük töhfələr verir. Eyni zamanda dövlət başçısının təşəbbüsü ilə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib.

Azərbaycan iqtisadiyyatı artıq tam mənası ilə şaxələndirilmiş iqtisadiyyatdır. Dünyanı bürüyən qlobal böhrana baxmayaraq, Azərbaycanın uğurlu inkişafı təmin edilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyevin məqsədyönlü və milli maraqlara cavab verən xarici siyasəti nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilmiş və ciddi uğurlara imza atmışdır. Hazırda BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, ATƏT və digər nüfuzlu beynəlxalq və regional təşkilatlarla səmərəli əməkdaşlıq aparılır. 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi ölkəmizin beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Ölkə başçısının təşəbbüsü ilə Türk Şurası və Qoşulmama Hərəkatının COVID-19 pandemiyasına qarşı mübarizəyə həsr olunan Zirvə görüşləri, eləcə də BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi, həmçinin Azərbaycanın Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat (GUAM) və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik etməsi ölkəmizə və dövlətimizin başçısına beynəlxalq arenada olan böyük hörmətin, nüfuzun göstəricisidir.

## Qurtuluşdan Zəfərə gedən yol

1993-cü ilin 15 iyununda Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ali hakimiyyətə qayıdışı ölkəmizin xilası, xalqın qurtuluşu, müstəqilliyimizin qorunması ilə yanaşı, həm də işğal altında olan torpaqlarımızın bir gün geri qaytarılması uğrunda mübarizənin başlanğıcı oldu.

"Azərbaycanın dövlət müstəqilliyi, milli azadlığı əbədidir və əbədi olacaqdır!",- deyən Ulu Öndərin uzaqgörənliyi, əzmkarlığı, məsləhətkeşliyi, ideyaları ilə müstəqilliyimiz qorundu, yaşadı, əbədiləşdi.

Bu gün müstəqil Azərbaycanımız etibarlı əllərdədir. 1990-cı illərdə səriştəsiz dövlət rəhbərləri tərəfindən ermənilərə satılan torpaqlarımız fəaliyyətində daim Heydər Əliyev siyasətinə, ideologiyasına əsaslanan dövlət başçısının rəhbərliyi ilə şücaətli Milli Ordumuz tərəfindən işğaldan azad edildi. 2020-ci ildə 44 günlük müharibə və 2023-cü ilin 20 sentyabrında birgünlük lokal xarakterli antiterror əməliyyatı ilə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması Ulu Öndərimizin ən böyük arzusunun reallaşması idi. Əgər müstəqilliyimizin əldə olunması, daimilik qazanması üçün Ulu Öndərə borcluyuqsa, ərazi bütövlüyümüzün bərpası, müstəqil dövlətimizin müasir dövrdə beynəlxalq aləmdə nüfuzunun artması üçün dövlətimizin başçısına minnətdarıq.

Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü hər bir vətəndaş üçün əzizidir. O mənada ki, xalq çox çətinliklə əldə etdiyi bu qiymətli sərvətin daimiliyi üçün, lazım gələrsə, canından belə keçməyə hazırdır. Xalq bir gün öz əzəli torpaqlarını da geri alacaqdı. Həmin günün Ulu Öndərin mənəvi varisinin, hər bir azərbaycanlının ümid bəslədiyi liderinin rəhbərliyi ilə reallaşması isə Azərbaycanda müstəqilliyimizin ilk illərindən həyata keçirilən siyasətin uğurla davam etdirilməsini təsdiqlədi. "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin",- deyən dövlət başçısının əzmini təsdiqlədi. 2020-ci il sentyabrın 27-dən başlayıb noyabrın 10-da bitən 44 günlə təsdiqlədi. Tarixə meydan oxuyan, dünyaya kimliyimizi göstərən 44 günlə. Azərbaycanın döyünən ürəyinə, bir parçasına qovuşduğu, 30 illik bir həsrətin, nisgilin bitdiyi anla təsdiqlədi. 10 noyabr 2020-ci il Ali Baş Komandanımız, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Milli Ordumuzun Azərbaycan tarixinə yazdığı yeni salnamə oldu.

Cənab Prezidentimizin Ulu Öndərin "Azərbaycanın ərazi bütövlüyü təmin edilməlidir" vəsiyyətini həm bir övlad, həm də siyasi rəhbər olaraq reallaşdırması xalqımıza liderlik bacarığını göstərməklə yanaşı, həm də qədim ailə dəyərlərimizin qorunub yaşadılmasının əhəmiyyətli məsələ olduğunu aşıladı. Bu isə ölkəmizdə hər bir gəncə nümunə gücündə olan təsirli məqamdır.

Tariximizin şanlı səhifəsini təşkil edən Qarabağ Zəfəri və ölkəmizin bugünkü inkişafı ötən 20 ilin hər anında Prezidentimizin praqmatik fəaliyyətinin nəticələridir. O nəticələr ki, bu gün bütün dünyanın diqqətini özünə yönəldən məqamlardır. Azərbaycanın gücü, eyni zamanda sülhsevər dövlət olduğuna dünyanın şahidliyidir. Ən əsası isə Azərbaycan vətəndaşının qürur yeridir.

Bəli, qürur duyuruq ki, Ulu Öndərimizin siyasi yolu uğurla davam etdirilir. Qürur duyuruq ki, 30 il əvvəlki Qayıdış xalqımıza Qurtuluş, müstəqillik, Zəfər, ərazi bütövlüyü, əmin-amanlıq və bugünkü inkişafı bəxş edib.

***Mətanət Məmmədova***

# 15 iyun Milli Qurtuluş Günü - Zəfər tariximizin başlanğıcıdır

## SƏS Media Qrupu və UNEC Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirib

***SƏS Media Qrupu və Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) birgə təşkilatçılığı ilə 15 iyun Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib. SİA xəbər verir ki, tədbir Ümummilli Lider Heydər Əliyevin, Vətən müharibəsində canından keçən şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Tədbirdə ictmai-siyasi xadimlər, tələbələr və media nümayəndələri iştirak edib.***

Açılış nitqi ilə çıxış edən UNEC-in rektoru, professor Ədalət Muradov 15 iyun Qurtuluş Gününün tarixi barədə danışaraq, günün əhəmiyyətini vurğulayıb: "Ulu Öndər Heydər













Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra sübut etdi ki, tarixi dəyişmək mümkündür. Lakin dünyada bunu bacaran çox az sayda şəxsiyyətlər var ki, onlardan biri də məhz Ümummilli Lider




Heydər Əliyev olmuşdur. 1993-cü il 15 iyun tarixində Ulu Öndər Ali Məclisin sədri seçilən zaman Azərbaycanın gələcək inkişafının təməlini qoydu. Həmin dövrdə Azərbaycan ciddi təhlükələrlə üz-üzə idi. Yenicə müstəqillik əldə etmiş Azərbaycanın qarşısında duran əsas vəzifə bu müstəqilliyi qoruyub saxlamaq idi. Müstəqilliyimizin itirilməsinə az bir məsafə qalmışdı ki, Ulu Öndər hakimiyyətə gələrək, dövlətimizin müstəqilliyini qorudu və ölkənin inkişafının dönməzliyini təmin edən əsasları yaratdı. Qarşıya qoyulan strategiyanın reallaşdırılması nəticəsində ən güclü və xoşbəxt dövlətlərdən birini qura bildik.

Bu gün Ulu Öndər Heydər Əliyevin ruhu şaddır. Ulu Öndərin görmək istədiyi Azərbaycanı bugünkü Prezident, Ali Baş Komandan İlham Əliyev bizə bəxş etdi. Azərbaycanın bugünkü uğurlarının əsası məhz Qurtuluş Günündə qoyulub".




Çıxış edən millət vəkili Rəşad Mahmudov gəncliyin hər zaman cəmiyyətin nə istədiyini dərk edə biləcək səviyyədə olmasının vacibliyini bildirib: "Gənclik dünyada baş verən prosesləri müqayisə edərək, qərar verməyi və cəmiyyəti inkişafa aparmağı bacarmalıdır. Azərbaycanın 1993-cü il 15 iyuna qədərki dönəmini həmin dövrün gənc vətəndaşı olaraq siyasi, iqtisadi tənəzzül dövrü kimi xatırlayıram. Ölkə daxilində hərc-mərclik hökm sürürdü və ciddi gərginlik müşahidə olunurdu. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə dövlətimiz yenidən çiçək açaraq inkişaf etməyə başladı. Ümummilli Lider bizə şərəfli bir tarix yolunu miras qoydu və hər birimizin borcudur ki, bu yolu şərəfli şəkildə davam etdirək. Bu gün biz torpaqlarını azad etmiş, suverenliyini bütün ərazisində bərpa etmiş dövlətin vətəndaşlarıyıq. Bu uğurların təməli isə məhz Ulu Öndər tərəfindən qoyulub və bu gün Heydər Əliyevin ruhu şaddır. Çünki biz müstəqil, suveren dövlət olaraq durmadan inkişaf edir, dünyada sözünü deyən dövlətə çevrilmişik" - deputat bildirib.

Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının və 91-lərin üzvü Tahir Məmmədov Ulu Öndərlə bağlı xatirələrini bölüşüb: "Moskvaya göndərişlə gedib, təhsil aldığım dövrlərdə Ulu Öndər Heydər Əliyev də orada idi. Ümummilli Lider həmin dövrdə SSRİ-nin rəhbərlərindən biri kimi fəaliyyət göstərir. Mən orada Heydər Əliyevə qarşı tələbələrdən, cəmiyyətdən böyük sevgi görsəm də, SSRİ rəhbərləri Ulu Öndərə, Onun fəaliyyətinə qısqanclıqla yanaşırdılar. Ulu Öndər rus dilində ruslardan daha yaxşı danışır, müdrikliyi, savadı və fəaliyyəti ilə hər zaman seçilir və sevilirdi. Onun atdığı addımların, qoyduğu güclü təməlin nəticəsidir ki, bu gün biz müstəqil və suveren dövlətdə xoşbəxt həyat sürürük. Ulu Öndərin varisi cənab İlham Əliyev Xankəndində üçrəngli bayrağımızı qaldıraraq, bir daha sübut etdi ki, Qarabağ Azərbaycanın bir parçasıdır".

SƏS Media Qrupun rəhbəri Bəhruz Quliyev qeyd edib ki, 15 iyun tarixi Azərbaycan dövlətçiliyi tarixində çox ciddi dönüş nöqtəsi olub: "Təqdim olunacaq film də məhz iki hissədən ibarətdir: birinci hissə 15 iyun Qurtuluş Gününə qədərki, ikinci hissə isə Qurtuluş Günündən sonrakı dövrü əhatə edir. Ulu Öndər elə bir dönəmdə xalqın təkidi ilə hakimiyyətə gəldi ki, o dövrdə dövlətin və xalqın çətin günlərdən xilas edilməyə ehtiyacı var idi. Buna görə də keçdiyimiz bu tarixi hər zaman yazılarımızda, bədii ədəbiyyatda və filmlərdə canlandırmalıyıq.

Ulu Öndər siyasi lider olaraq bir sözü, baxışı, hərəkəti ilə qarşısındakına lazımi cavabı verir, fikrini bildirirdi. Eyni zamanda Ümummilli Lider Heydər Əliyev hər kəslə öz dilində danışmağı, dost olmağı bacarırdı. Azərbaycan dövlətinin qəlbi hər zaman dahi, qəhrəman oğlu Ulu Öndər Heydər Əliyev ilə döyünür.

Ulu Öndər həm də öz ailəsində sərkərdə, qəhrəman böyütmüşdü. Hansı ki, gələcəkdə həmin sərkərdə, Prezident İlham Əliyev Azərbaycanın suverenliyini bütün ölkə ərazisində təmin edərək, dünyaya gücümüzü göstərdi. Bu gün Ulu Öndərin ruhu şaddır. Çünki biz azad, müstəqil və suveren Azərbaycanın vətəndaşlarıyıq".

Tədbirin sonunda SƏS Media Qrupu tərəfindən 15 iyun Milli Qurtuluş Gününə həsr edilmiş "Xalqın taleyini dəyişən zəfər günü" filminin təqdimatı keçirilib.

***Səbinə Hüseynli***

# "Azərbaycan və Misir beynəlxalq formatlarda sıx əməkdaşlıq edir"

"Misir İslam coğrafiyası, ərəb və bütövlükdə Şərq dünyasında, habelə Afrika qitəsində ciddi nüfuz sahibi olan beynəlxalq subyektdir. Azərbaycan isə yaratdığı geosiyasi reallıqla bütövlükdə regionda yeni parlayan hərbi-siyasi kimi güc mərkəzi kimi özünü təsdiq edib. Bu mənada, Azərbaycan Respublikası və Misir Ərəb Respublikasının əlaqələrinin müsbət dinamikası qlobal sülh və təhlükəsizliyə müsbət təsir effekti perspektivinə malikdir. Bildiyiniz kimi, Azərbaycan və Misir BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatında və digər beynəlxalq formatlarda sıx əməkdaşlıq edir və demək olar ki, bütün məsələlərdə bir-birini dəstəkləyir. Qütbləşmənin dərinləşdiyi, Qərbin bir sıra imperialist dairələrinin daha da azğınlaşdığı bir dövrdə Azərbaycan və Misirin münasibətləri daha da dərinləşdirməsi zərurətə çevrilib". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib.



Millət vəkili sözlərinə davam edərək bildirib ki, Misir digər regionlara əlverişli çıxış imkanlarına malik strateji coğrafiyada yerləşən nəhəng dövlətdir: "Azərbaycandan isə möhtərəm Prezidentin də bildirdiyi kimi, "həm Şərq-Qərb, həm Şimal-Cənub nəqliyyat dəhlizləri keçir. Habelə Azərbaycan ərazisində bütün infrastruktur yaradılıb və beləliklə, nəqliyyat-logistika sahəsində əməkdaşlıq üçün çox gözəl imkanlar açılmaqdadır". Təbii ki, bütün bunlar hər iki ölkənin və xalqlarımızın maraq və mənafelərini əhatə edən münasibətlərin yeni səviyyəsini gündəmə gətirir. Möhtərəm Prezidentin səfəri çərçivəsində bu təmasları, Azərbaycan və Misirin əlaqələrinin digər bir istiqaməti, ölkələrimiz arasında islam həmrəyliyinin güclənməsinə töhfələrini xüsusi qeyd etmək yerinə düşər. Xüsusən cənab Prezidentin Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib ilə görüşü ölkələrimizin bütövlükdə dünyada islam həmrəyliyinin möhkəmlənməsinə və mötədil islamın inkişafına mühüm töhfəsi sayıla bilər".

# Ermənistanda SEÇKİ KABUSU

***Nikol Paşinyanın Milli Assambleyada istənilən qanunu qəbul edə biləcəyini və hansısa qüvvənin heç bir şəkildə onun hərəkətlərini məhdudlaşdıra bilməyəcəyini, erməni müxalifətinin isə birlikdə hakimiyyətə təsir etmək üçün heç bir alətə malik olmamasını erməni cəmiyyəti çoxdan bilir. Çoxdan bilir ki, artıq Ermənistanın hazırki hakimiyyətinə məhz erməni cəmiyyətin alternativ yoxdur. Sözsüz ki, Paşinyan da bunu yaxşı bilir, erməni müxalifəti də qəbul edir, üstəlik Ermənistan ictimaiyyəti də bu reallıqla çoxdandır ki, barışıb.***



Məsələ burasındadır ki, Ermənistada son günlər növbədənkənar parlament seçkiləri mövzusu aktuallaşıb. Bəzi KİV-lər də baş nazir Nikol Paşinyanın özünün bu il növbədənkənar parlament seçkiləri keçirməyi planlaşdırdığını və bu barədə qərarın bir neçə gün əvvəl hakim "Mülki Müqavilə" partiyasının iclası zamanı verildiyini yazmaqla bir növ, alovun üstünə neft əlavə etmiş olublar. Maraqlıdır ki, həmin KİV-lər hökumətdəki mənbələrinə istinadən izah ediblər ki, bununla Paşinyan guya müxalifət partiyalarının parlamentdəki yerlərinin sayını azaltmaq istəyir. Qeyd olunur ki, guya erkən seçkilər siyasi meydanı gözlənilməz şəkildə ələ keçirəcək və yeni müxalifət qüvvəsi yetişdirə bilən seçkilərə bununla imkan verilməyəcək. "Od olmasa tüstü çıxmaz" zərb məsəlində deyildiyi kimi, hər halda bu spekulyasiyaların arxasında nə isə var ki, bu şəkildə yayılmaqadır.

Diqqətə çatdıraq ki, Ermənistan Milli Assambleyasının vitse-spikeri Ruben Rubinyan jurnalistlərə öz fikirlərini və bununla bağlı münasibətini bildirib. "Dünyada seçkilər ona görə icad edilib ki, insanlar küçələrə çıxmasınlar və insanlar sivil şəkildə seçki məntəqələrinə gedib, səs versinlər, buna uyğun da hakimiyyət müəyyən olunsun", deyə bəyan edən Rubinyan Ermənistanı guya bir demokratik ölkə olaraq sırımağa çalışıb və həmin ölkədəki seçki mexanizmi barədə də xatırlatma etməklə buna nail olmaq istəyib. Bəs 2018-ci ildə niyə küçələrə çıxıb hakimiyyət dəyişikliyi həyata keçirdiklərini soruşduqda, Ermənistan Milli Assambleyasının vitse-spikeri vəziyyətdən çıxmaq üçün bir cavab tapa bilib. "2018-ci ildə demokratik, azad və şəffaf seçki mexanizmi yox idi və ona görə də seçki nəticəsində hakimiyyət seçiləndə insanlar bunu legitim hesab etmirdilər. Buna görə də inqilab baş verdi", deyən Rubinyan bununla fikirlərini əsaslandırmağa çalışıb. Görünür, elə onun özü də seçki ilə bağlı spekulyasiyalardan müəyyən dərəcədə "təsirlənib" və hansısa formada bəzi məsələlərdən də xəbərdardır deyə tam hazırcavablıqla suallar qarşısında özünü itirməyib.

Onu da qeyd etmək yerinə düşərdi ki, bir neçə gün əvvəl səhiyyə naziri Anahit Avanesyan özü də dolayısı ilə hakimiyyətin yeni seçkilər planlaşdırmadığını təsdiqləyib. "2026-cı il seçkiləri gələcək və xalqımız öz qiymətini verəcək. Bütün səlahiyyətlilər bəzi istiqamətlərdə uğur qazanırlar, digərlərində isə uğurlar o qədər də çox deyil. Seçkilər hakimiyyətin uğur qazanıb-qazanmadığını xalqın dəyərləndirdiyi mexanizmdir. 2026-cı il seçkiləri gələcək və xalqımız öz qiymətini verəcək", deyə Avanesyan açıq şəkildə qeyd edib.

Çox maraqlı hal, müəmmalı vəziyyətin yarandığı qənaətinə gələnlər də az deyil. Məsələn, növbədənkənar seçkilərlə bağlı mətbuatda dolaşan şayiələr erməni müxalifətini əməlli-başlı çaşdırıb. Ermənistan müxalifəti məhz bu çaşqınlıq fonunda da dərhal absurd tələblər irəli sürməyə başlayıb. Deyirlər ki, Paşinyan baş nazir olaraq qalmasa da biz bu seçkilərdə iştirak etməyə hazırıq. Bu barədə Köçəryanın "Ermənistan" fraksiyasının katibi Artsvik Minasyan jurnalistlərlə söhbətində bildirib. "Nikol Paşinyan istefa verdiyini və baş nazir səlahiyyətlərini icra etməyəcəyini bəyan etməlidir", deyə Minasyan açıq şəkildə söyləyib. Yəni, fikirlər ortadadır. Bütün bunlar Ermənistanda bir seçki kabusu olduğunu deməyə əsas verir və erməni cəmiyyətinin də bu barədə müəmmalı vəziyyətdə olduğu da yəqin ki, bu baxımdan səbəbsiz deyil.

Erməni cəmiyyəti elə hesab edir ki, Ermənistan müxalifətinin ortaya atdığı kifayət qədər absurd tələbdir. İndi haylar elə hesab edirlər ki, bu, bir tərəfdən də müxalifətin yeni seçkilərdən qorxduğunu göstərir. Çünki haylar özləri hamıdan yaxşı bilirlər ki, müxalifətin ortaya qoyacağı bir dənə də olsun namizədi yoxdur. Yəni, hazırki hakimiyyətə alternativ olacaq bir qüvvənin, bir gücün olmadığını ermənilər özləri də, elə müxalifət qüvvələri də yaxşı bilirlər. Yaxşı bilirlər ki, nə Srbazan alternativ sayıla bilməz, nə də ermənilərin hansısa siyasətçisi bu gün erməni cəmiyyətinin gözündə belə nə isə demək deyil. Robert Koçaryan və Serj Sarkisyanı isə nümunə belə gətirmək mümkün deyil, çünki ermənilər bu cinayətkar rejimdən, Qarabağ klanından ona görə canlarını qurtarmayıblar ki, bir də onların hakimiyyətə gətirilməsi məsələsi barədə düşünsünlər. Bu baxımdan da müxalifətmilərin qorxuları tamamilə başadüşüləndir. Həm də haylar görürlər ki, müxalifət mandatından möhkəm yapışıb, əldən vermək fikrində də deyil və əldən vermək qorxusu da, kabusu da məhz buna görədir. Deməli, seçki kabusu deyilən qorxu erməni cəmiyyətini məhz buna görə bürüyüb.

Xatırladaq ki, parlamentdəki müxalifət hökumətə impiçment elan etmək cəhdlərində uğursuzluğa düçar olub. Onların bütün hərəkətləri, səyləri heç bir nəticə vermədi. Əlbəttə ki, bu, başadüşüləndir. Ona görə başadüşüləndir ki, həmin ölkədə indiki hakimiyyət getməsə, həmin hakimiyyəti heç olmasa müxalifətlə dialoqa getməyə məcbur edəcək güclü ictimai təzyiq belə yoxdur. Bu bir həqiqətdir. Hakimiyyətə həris olan, can atan Robert Koçaryan da, Serj Sarkisyan da bu həqiqəti çox yaxşı başa düşürlər. Onlar çox yaxşı xatırlayırlar ki, 2021-ci ilin iyununda keçirilən sonuncu növbədənkənar seçkilərdə cəmi 36 mandat qazana biliblər və Paşinyanın partiyası 44 günlük müharibədə məğlubiyyətdən sonra belə, 54% səs və parlamentdə 72 yer qazanıb. Düməli, bundan sonra da onların nəyə isə ümid etmələri ağılsızlıqdan başqa bir şey olmaz. Belə çıxır ki, az da olsa, zərrə qədər də olsa Robikin və Serjikin ağlı çatırmış ki, seçki ilə bağlı narahatlıqları yaranır və seşki kabusunun yaranmasını da bu mənada başa düşmək çətin deyil.

İndi erməni cəmiyyəti, lap elə müxalifət özü də açıq-aşkar şəkildə etiraf etməlidir və edir də ki, Nikol Paşinyan Milli Assambleyada istənilən qanunu qəbul edə bilər və heç bir şəkildə onun fəaliyyəti məhdudlaşdırıla bilməz və hem müxalifət də hansısa təsir etmək üçün heç bir alətə belə malik deyil. Açıq şəkildə ermənilər etiraf etməlidirlər ki, məsələn, əgər gələn bazar günü növbədənkənar seçkilər keçirilsə, "Ermənistan" əvvəlkindən də daha az səs toplaya biləcək. Ona görə ki, son üç ildə onlar yalnız öz mandatları uğrunda ayağa qalxan, ölkədə vəziyyətin yaxşılaşdırılması üçün çalışan kəs yox, səriştəsiz siyasətçi statuslarını gücləndiriblər. Ona görə də onlar erkən seçkilərin mümkünlüyündən əməlli-başlı qorxurlar. Hər halda, daha dəqiq qənaətə gəlmək üçün 2026-cı ildə keçiriləcək növbəti parlament seçkilərini gözləmək daha doğru olardı. Bununla belə seçki kabusu həmin vaxta qədər Serj Sarkisyanın da, Robert Koçaryanın özünün də, onların dəyirmanına su tökən erməni müxalifətinin də yuxusunu ərşə çəkəcək.

***İnam Hacıyev***

# Qohumla ona görə evlənmək olmaz ki...



***İki gündür ölkə mətbuatı qohum nikahların qadağan olunması məsələsini müzakirə edir. Bununla bağlı Ailə Məcəlləsinə dəyişiklik təklif olunur. Cəmiyyət iki cəbhəyə bölünüb. Haqlı olaraq bu nikahların genefondu dağıtdığını düşünənlər, haqsız olaraq qohum nikahları müdafiə edənlər. Yaxşı haldır ki, birincilərin sayı ikincilərdən çoxdur, lakin bu ölkə əhalisini qohum nikahlardan çəkindirmək üçün yetərli deyil.***

Qohum nikahlar bir-biri ilə qohumluq əlaqəsi olan insanların ailə qurmasına verilən addır. Evlənən və nəsil verən şəxslər arasında valideyn-övlad əlaqəsi varsa, gələcək nəsildə xəstəlik ehtimalı böyükdür. Statistikaya görə Azərbaycanda qeydə alınan nikahların, təxminən, 60 faizi qohumlar arasında bağlanır.

Təkamül prosesindən az-çox anlayışımız olduqda "qohumluq" anlayışını analiz edirik və anlayırıq ki, yer üzündəki bütün insanlar əslində bir-biri ilə qohumdur, sadəcə yaxınlıq və uzaqlıq dərəcələri, nəsil mərhələləri vacibdir. Qohum nikahı anlayışı yaxın qan qohumluğu olan və ortaq nəsildən olan şəxslər arasında qohumluq əlaqəsi deməkdir. İnsanlar öz əmisi oğlu, bibisi qızı, dayısı oğlu, xalası qızı ilə evlənmənin gələcək uşaqları üçün zərərli ola biləcəyini başa düşməzdən əvvəl, genetikanın nə olduğunu, ailələrdə xəstəliklərin necə baş verdiyini başa düşməlidirlər. Qohum evlilikləri bu genetik pozğunluqlara təkan verən, xəstəliyi qıcıqlandırıb oyadan amildir.

Xəstəliyi resessiv şəkildə daşıyan iki fərd ayrı-ayrılıqda nikaha girəndə də onların uşağının bu xəstəliyə tutulma ehtimalı 25% civarında olacaq. Lakin eyni nəsil daxilində qohum nikahlarının artması və bu qohumların övladlarının çoxluğu xəstəliklərin inkişaf riskinin artmasına səbəb olur. Bu resessiv genlərin daha tez-tez birləşməsi anadangəlmə qüsurların və ölümlərin əsas səbəbidir. Genetik problemlərin əhəmiyyətini də belə başa düşə bilərik: qadınların 50%-i normal hamilәlik yaşaya biləcək orqanizmə sahib olmalarına baxmayaraq, bunu yaşaya bilmir, çünki qohum nikahındadır, onların doğulmamış uşaqları resessiv olan genetik anormallıqlar səbəbindən ya anomaliya ilə doğulur, ya da hamiləlik yarıda pozulur.



### Bizi valideynlərimiz kodlayır, əgər genlər xəstədirsə...

İnsanlarda 22 cüt autosom və ya cinsiyyət xromosomu və 1 cüt cinsi xromosom (oğlanlarda XY, qızlarda XX) var. Doğulmamış uşaq genini hər iki valideyndən, yarısını atadan, digər yarısını isə anadan alır. Fərdlər arasındakı fərqlərin səbəbləri daha çox hüceyrələrdə mayoz prosesi zamanı genlərin rekombinasiyası ilə bağlıdır. Bundan əlavə, mutasiya halları və müstəqil variasiyalar da bir insanı digərindən fərqləndirən genetik dəyişikliklərə səbəb olur.

Bu nə deməkdir? Bəzi genlərimiz tərəfindən kodlaşdırılan fiziki, fizioloji və ya davranış xüsusiyyətlərimizin düzgün işləməsi üçün hər iki valideynimizdən aldığımız genin normal işləməsi şərtdir. Bizi kodlayan genlərdən yalnız biri işləsə belə, ona tabe göstəricilərimiz normal inkişaf edə və və orqanizmimiz işləyə bilər. Lakin aldığımız 2 qüsurlu gen olduqda genetik xəstəliklər baş verir. Yəni, əgər tərəflər qohum olmasa idi, əgər ikisindən birinin genində problem olsa idi belə, dünyaya gələcək uşaqların orqanizmi çox zərər görməzdi. Lakin tərəflər qohumdur və eyni xəstə geni daşıyırlar və dünyaya gələcək övladlarına eyni geni ötürürlər, bu zaman mutasiya problemləri yaranır. "Autosomal resessiv" genetik xəstəliyi olan bir şəxsin bu xəstəliyi daşımasının səbəbi hər iki valideynindən zərərli mutasiyaya malik eyni geni miras alması deməkdir.



### Qohumla evlənib nəsil artırırsansa...

Qohum evliliklərinin nəsil davamlılığı risk altında olur. Əgər ailədə qohum nikahı olmayıbsa və ilk qohum nikahı gerçəkləşirsə onların anadangəlmə qüsurlu uşaqlarının doğulma nisbəti 3%-dən 4-5%-ə qədər artır. Ölüm göstəriciləri qohum nikahı olmayanlara nisbətən 3,5-4,4% yüksəkdir. Lakin ailə daxilində qohum nikahlarının tezliyi və sayı artdıqca bu faizlər də artır.

Məsələn, əmiuşağı, xalauşağı, bibi-dayı uşaqları evliliklərinin nisbətinin 50%-i keçdiyi düşünülən Pakistanda bu nikahlardan doğulan uşaqların ölüm nisbəti 7,9% təşkil edir. Qohum evliliyi olmayan ailələrdə doğulan uşaqlarda bu ölüm nisbəti təxminən 5,1% təşkil edir. İkiqat birinci dərəcəli qohum nikahından doğulan uşaqlarda ölüm səbəblərinin 41,2%-i resessiv genlərlə bağlıdır. Yəni qohum nikahından doğulan uşaqlar da böyüyüb qohumla nikaha girirsə bu təhlükə 41 faizi ötür. Bu nisbət qohum evliliyi nəticəsində doğulan pakistanlı uşağın digər uşaqlara nisbətən resessiv genlərin yaratdığı genetik xəstəliyə tutulma riskini 13 dəfə artırır.

Qan qohumları olan şəxslərin eyni resessiv xəstəliklərin səssiz daşıyıcısı olma ehtimalı daha yüksəkdir, çünki onlar eyni nəsildən gəlirlər və oxşar genləri miras alıblar. Buna görə də qohum evliliyindən doğulan uşaqlarda "autosomal resessiv" genetik xəstəliklər riski daha yüksəkdir. Valideynlər arasındakı qohumluq əlaqə dərəcəsi nə qədər yaxın olarsa, uşağın eyni genləri alma ehtimalı bir o qədər çox olar. Bu, doğulmamış uşaqda resessiv genlər vasitəsilə miras qalan xəstəliklərin daha çox yayılmasına səbəb olur.

### Qohum nikahları ipi çəkilmiş bombadır

Azərbaycanda qohum evliliyinin çox olması genetik xəstəliklərin geniş yayılmasının əsas səbəbidir. Bu xəstəliklər arasında beta talassemiya, metabolik xəstəliklər, əzələ distrofiyaları, aralıq qızdırması daha çox yayılıb. Qohum nikahlar daha çox Şəki, Masallı və Bakıda yayılıb. BMT-inin Əhali Fondu Reproduktiv Sağlamlıq üzrə Milli Ofisinin məlumatına görə, həmin bölgələrdə irsi xəstəliklərin yayılma tempi 15 faiz təşkil edir. Bu xəstəlikər arasında ən çox yayılanı talassemiyadır. Bu xəstəliyin daşıyıcıları arasında qohumla evlənmə faizi yüksəkdir. Onların isə dünyaya xəstə uşaq gətirmə ehtimalı 25 faizdir.

Dünyada da qohum nikahların sayı getdikcə artır. Dünya üzrə bağlanan nikahların 20 faizi qohumluq əlaqələri olan nikahlardır. Faiz nisbəti ilə götürsək hər il dünyada doğulan körpələrin 8.5 faizi qohum nikahlarından doğulan körpələrdir. Azərbaycan kimi qohum nikahlara üstünlük verən ölkələrdə fiziki qüsurlu uşaqların doğulma tezliyi də sıx-sıx rastlanır. Qohum nikahlarına görə dünya ölkələri arasında liderlik edən ölkələr C. Hindistan, Misir və Türkiyədir.

### Niyə qohuma qız verib, qız alırlar?

Ölkəmizdə qohum nikahları bir çox səbəbdən bağlanır. Birinci səbəbi qohumdan qız almaqla evdə sabitliyi qorumaqdır. Belə düşünülür ki, əgər qohumdan qız alınsa evdə qaynana-gəlin konfilikti olmaz. İkinci səbəbi odur ki, qohumla qohum olanda toy və nişan qiymətlərində güzəşt olunur. Qohumdan alınan qız bahalı kürk istəməyə, brilliant qaşlı boyunbağı istəməyə utanır. Qızın ailəsi oğlan tərəfin daha dəbdəbəli toy etməsini tələb etmir, oğlan evi daha cah-cəlallı cehiz istəmir, çünki arada qohumluq var, çəkinirlər. Üçüncü bir səbəb də odur ki, tərəflər qohumluq əlaqələrinin daha da möhkəmlənməsi üçün qohum nikaha üstünlük verirlər.

Problem o qədər böyükdür ki, həlli hardasa mümkün deyil. Çünki insanlar qohum nikahların fəsadları barədə məlumatlı deyil, xəbərdarlıqlara məhəl qoymurlar. Azərbaycanda 500 min əlil insandan 200 min nəfəri məhz qohum nikahlarından doğulanlardır. Bu insanların günahı nədir? Savadsız valideynin cəzasını körpələri çəkir. Qohum nikahlar bacı-qardaş evliliyi hesab edilir. Çünki onlar eyni genin daşıyıcılarıdır. İrsi xəstəliklər də məhz bu qohum nikahlarından sonra inkişaf edir.

### Nə etməli?

Problemin həlli yalnız məcburi qaydada mümkündür. Qadağanın tətbiq ediləcəyi gün genefondun mühavizəsi istiqamətində ilk addım atılacaq. AR Ailə Məcəlləsi maddə 12-də bildirilir ki, qohum nikahları ölkəmizdə qadağandır. Amma orada yaxın qohumlar - valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey qardaş və bacılar nəzərdə tutulur. Təklif olunan dəyişiklikdə bu siyahıya əmi, bibi, xala və dayıuşaqlarının da əlavə olunacağı bildirilir.

Ölkəmizdə böyük Talessemiya Mərkəzi tikilib, çünki talessemiya ağır irsi qan xəstəliyidir. Əgər qohum nikahı bağlayan hər iki fərdin bu irsi xəstəliyi varsa xəstəlik onların uşaqlarında özünü büruzə verir. Ailələr var ki, 3 uşağı var, üçü də talessemiya xəstəsidir. Çünki qohum nikahdır. Yaxın qohumlar arasında bağlanan nikahlar nəticəsində doğulan uşaqlar genetik xəstə olurlar. Əgər əvvəllər də eyni nəsildə yaxın qohumlar arasında nikahlar bağlanıbsa, uşağın xəstə doğulması riski daha da artır. Beləliklə nikaha daxil olmuş qan qohumlarının genetik xəstəliklərə yol açma riski olduqca yüksəkdir.

Qohum nikahları çoxdan qadağan etmək lazım idi, amma gec atılan addım da cəmiyyətin faydasınadır. Nə qədər ki, ölkədə doğulan bütün uşaqların hamısı ya fiziki, ya əqli qüsurla doğulmayıb, bu problemi həll eləmək lazımdır. Mexanizm necə qurulacaq, nəzarət necə tətbiq olunacaq, hələ bilinmir, amma əməl etməyə birinci siz başlayın, qohuma qız verməyin, qohumdan qız almayın!

***Lalə Mehralı***

# QURTULUŞDAN ZƏFƏRƏ...

***Azərbaycan xalqı müxtəlif dövrlərdə çətin sınaqlarla üzüzə qalımış, lakin bu sınaqladan xalqın birliyi nəticəsində şərəflə çıxa bilmişdir. Ötən əsrin 90-cı illərin əvvələrində yaşanan faciəvi dövr Azərbaycan xalqının tarixən üzləşdi ən ağır dövr olmuşdur. Həmin kəşməkeşli dövrdə xalqın sabaha olan ümidi tammilə sarsılmış, yenicə qazandığı dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdir. AXC-Müsavat iqtidarı isə ölkədiki xaos və anarxiyanı aradan qaldırmağa cəhd etmirdi.***




Daha doğrusu səriştəsiz siyasətləri səbəbindən yaranan ağır, böhranlı durumu aradan qaldırmaq imkanında deyildilər. Haqlarının tapdanmasına, hüquqlarının pozulmasına, dövlətçiliyin itirilməsi təhlükəsi ilə barışa bilməyən əhali küçələrə çıxıb etiraz aksiyası keçirərkən AXC-Müsavat iqtidarı əhalinin üzərinə hücüm edir, insanları döyür, həbsxanalara atırdılar. Bu da xalqla hakimiyyət arasında həlli mümkün olmayan uçurum yaratmışdır. Böhranlı vəziyyətdən sui-istifadə edən erməni terrorçu qüvvələri ardıcıl olaraq torpaqlarımızı işğal edirdi. Belə bir ağır şəraitdə xalq üzünü Ulu Öndər Heydər Əliyevə tutdu. Azərbaycan xalqı başa düşürdü ki, ölkəni bu çətin vəziyyətdən yalnız Heydər Əliyev kimi bacarıqlı, uzaqgörən lider çıxara bilər. 1992-ci il oktyabr ayının 16-da 91 nəfər ziyalının ünvanladığı müraciətdə Dahi Öndərdən yeni bir siyasi partiyanın yaradılması və ona rəhbərlik etməsi xahiş olundu.



***İqbal Məmmədov, Milli Məclisin deputatı***

1992-ci il oktyabrın 24-də cavab məktubunda Ümummilli Liderimiz Heydər Əliyev xalqın çağırışlarına səs verərək müraciəti qəbul etdi və Yeni Azərbaycan Partiyasının yaradılmasına, onun Sədri olmağa razılıq verdi. Beləliklə 550 nəfərdən ibarət təşəbbüs qrupunun iştirakı ilə 1992-ci il noyabrın 21-də Naxçıvanda partiyanın təsis konfransı keçirildi. Konfransda Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar qəbul edildi və Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Bununla da ölkəmizin həyatında yeni və sürətli inkşaf dövrünün əsası qoyuldu. Yeni Azərbaycan Partiyası yarandığı zamanda müxalifət partiyası olmasına baxmayarq böyük siyasətçi Ulu Öndərimiz Heydər Əliyevin rəhbərliyi altında xalqın sevgisini, inamını qazanaraq qısa müddət ərzində iqtidar partiyasına çevrildi.




1993-cü ilin iyunun 9-da xalqın tələbi ilə Dahi Öndər Heydər Əliyev Naxçıvandan Bakıya gəldi. İyunun 15-də isə Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikasının Ali Sovetinin sədri seçildi. Bütün çətinliklərə baxmayaraq Ulu Öndər xalqın qurtuluş missiyasını cəsarətlə öz üzərinə götürdü. Sonralar ümummilli lider Heydər Əliyev müstəqilliyimizin bu mərhələsini belə xarakterizə edirdi: "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyununda hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı".

15 iyun müasir Azərbaycan dövlətinin tarixinə Milli Qurtuluş Günü kimi daxil oldu. Sonralar ölkənin ali qanunvericilik orqanı xalqın ən müxtəlif təbəqələrinin arzu və istəklərini nəzərə alaraq ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü əbədiləşdirdi. 15 İyun - Qurtuluş Günü Azərbaycan Milli Məclisinin qərarı ilə 1997-ci ilin 27 iyununda rəsmiləşdirildi. Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ən ağır günlərdə Heydər Əliyevin öz xalqının iradəsinə tabe olaraq ölkə rəhbərliyinə qayıtması, əslində, onun müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı könüllü olaraq öz üzərinə götürməsi idi. Bu, sözün əsl mənasında, "ömrümün qalan hissəsini də xalqıma qurban verirəm" deyib meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi. Qısa müddətdə ölkədə sabitlik təmin olundu, yeni iş yerləri yaradıldı, hüquqi, demokratik dövlət quruculuğu istiqamətində mühüm addımlar atıldı, insan hüquq və azadlıqlarının təmin olunması məqsədilə Fərman və Sərəncamlar verildi, qanunlar qəbul olundu.

Dahi Öndərimiz Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıdarkən demişdir: "Mənim həyatım xalqa məxsusdur və bundan sonra ömrümün qalan hissəsini də xalq üçün əsirgəməyəcəyəm. Həyatımın mənasını ancaq xalqa xidmət etməkdə görürəm. Mənim üçün ən böyük mükafat bundan sonra da xalqın etimadını doğrultmaqdan ibarətdir". Ulu Öndər Azərbaycan xalqının lideri və xilaskarı kimi şərəfli missiyanı böyük əzmlə yerinə yetirdi, xalqı və dövləti yürütdüyü müdirik siyasətlə bütün bəlalardan xilas etdi, Azərbaycanı dünyanın inkişaf edən, nufuzlu dövlətləri sırasına çıxartdı.

Getdikcə beynəlxalq əlaqələri güclənən Azərbaycanda 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması və yeni neft strategiyasının uğurlu başlanğıcının qoyulması isə ölkəmizin əldə etdiyi ən parlaq nailiyyətlərdən biri kimi tarixə yazıldı. Bununla bağlı İlham Əliyev də xalqa müraciətində demişdir: "Heydər Əliyev neft strategiyası bu gün imkan verir ki, inkişaf edək, Qarabağı, Zəngəzuru yenidən quraq. 1994-cü ildə "Əsrin kontraktı", 1996-cı ildə "Şahdəniz" qaz-kondensat yatağı üzrə imzalanmış kontrakt bizim bugünkü iqtisadi qüdrətimizi şərtləndirən əsas amildir".

# Qurtuluşa aparan yol

*Ulu öndər Heydər Əliyevin 1993-cü il iyunun 9-da xalqın çağırışına səs verərək Bakıya qayıtması Azərbaycanı parçalanmaqdan, dövlətçiliyi məhv olmaqdan, xalqı vətəndaş müharibəsi təhlükəsindən qurtardı*








## Azərbaycanın inkişafında yeni mərhələ

2003-cü ildən Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasəti Onun ən layiqli siyasi varisi, Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev uğurla davam etdirməkdədir. 2003-cü ilin 15 oktyabr prezident seçkiləri ərəfəsində Ümummilli Lider Heydər Əliyev xalqa müraciət ilə əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərmişdir: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

2003-cü il prezident seçkilərində xalq Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasətin davam etdirilməsinə səs verdi. Dahi Öndərimizi ən layiqli siyasi varisi Cənab İlham Əliyev xalqın 76,84 faiz səsini qazanaraq ölkə Prezidenti seçildi. Prezident İlham Əliyev andiçmə mərasimində demişdir: "Heydər Əliyevin siyasəti Azərbaycana böyük uğurlar gətiribdir. Bütün sahələrdə Azərbaycan inkişaf edir, uğurlar qazanıb. Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilib, Azərbaycanın nüfuzu artıb. İndi Azəçrbaycanla hesablaşırlar, Azərbaycana hörmət edirlər. Regionda bütün beynəlxalq, irimiqyaslı layihələr Azərbaycanın iştirakı ilə, onun milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir".

Son 20 il də Azərbaycan Prezidenti İlham Əliyevin uğurlu inkişaf strategiyası nəticəsində ölkəmiz dayanıqlı və davamlı iqtisadi inkişafa nail olub, əhalinin sosial-iqtisadi vəziyyəti daha da yaxşılaşıb, beynəlxalq aləmdə nüfuzu daha da artıb, dövlətimiz Cənubi Qafqazın siyasi, iqtisadi mərkəzinə çevrilib.

Cari ilin yanvar ayının 1-dən bütün növ sosial ödənişlər, təqaüdlər, minimum əməkhaqları 30 faizədək artırılıb. Şəhid ailələrinin, qazilərin mənzil, məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb. Şəhid ailə üzvləri və müharibə veteranlarından ibarət 103 min şəxsə aylıq sosial ödəniş təyin olunması, 3 565 şəxsə sığorta ödənişinin edilməsi bu kateqoriyadan olan insanlara diqqət və qayğının göstəricisidir. 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olan 17 164 şəxs üzrə birdəfəlik ödəmə verilib. Şəhid ailələri üzvləri, müharibə iştirakçılarından ibarət 11 min şəxsə 43 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Ötən dövr ərzində şəhid ailələrinə və qazilərə 13560 mənzil və fərdi ev verilib.Qazilər avtomabillərlə təmin olunub, xarici ölkələrdə müalicə və müayinələri təmin edilib.

Beynəlxalq əlaqələrə xüsusi önəm verən Azərbaycan əksər ölkələrlə ikitərəfli əməkdaşlıq əlaqələri qurmağa nail olub. Bunun nəticəsidi ki, Azərbaycanı sevən, dərin hörmət və rəğbət bəsləyən dövlətlərin səsverməsi ilə Azərbaycan daha üç il müddətinə Qoşulmama Hərəkatına sədrlik edib və bununla təşkilatın dünyada nüfuzu daha da artıb, mövqeləri möhkəmlənib. 2011-ci ildə Azərbaycanın 155 ölkənin dəstəyini qazanaraq BMT Təhlükəsizlik Şurasına qeyri-daim üzv seçilməsi ölkəmizin dünyada yerinin və rolunun yüksək olduğunun göstəricisidir. Bunla yanaşı Azərbaycan bir sıra Avropa və beynəlxalq miqyaslı idman yarışlarına, konfranslara, tədbirlərə də ev sahibliyi edir. Azərbaycan 2015-ci ildə ilk Avropa Oyunlarına, 2017-ci ildə isə IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi edib.

## Vətən müharibəsində qazanılmış qələbə

Prezident İlham Əliyevin milli maraqlara əsaslanan siyasətinin əsasını 44 günlük Vətən müharibəsi ilə 30 il işğal altında olmuş torpaqlarımızın düşmən əsarətindən azad edilməsi və bununla da Ali Baş Komandanın ata vəsiyyətini yerinə yetirməsidir. Vətən müharibəsində qazanılmış qələbə Azərbaycan tarixinə qızıl hərflərlə yazılan şanlı səhifə oldu. 2020-ci ildə Müzəffər Ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin ərazi bütövlüyünü bərpa etdi, müqəddəs Qarabağımız işğaldan azad olundu. 2023-cü ilin aprelin 23-də isə Laçında, Həkəri çayının üzərində sərhədkeçid məntəqəsi quruldu.

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyev Qarabağın incisi olan Şuşanın işğaldan azad olunması müjdəsini Azərbaycan xalqına çatdırarkən demişdir: "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, Onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!". Bu fikirləri ilə Prezident İlham Əliev Ümummilli Liderimizin siyasətini inamla və qətiyyətlə davam etdirdiyini və Dahi Öndərin vəsiyyətini böyük qürur hissi ilə yerinə yetirdiyini söylədi.

İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan xaos və anarxiya meydanına, geosiyasi mübarizə poliqonuna, "demokratiya laboratoriyası"na çevrilən region ölkələrindən fərqli olaraq həm öz milli qüdrətini artırdı, həm də Zəfər tarixi yaradaraq tarixi yenidən yazdı - tarixin yaddaşına əbədi həkk olundu. Bu Qələbə təkcə Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpası deyil, eyni zamanda, milli mənəviyyatın yenilənməsi, milli qürur və ləyaqətin bərpası, dövlətçiliyin gücləndirilməsidir. Zəfərin strateji prosesə çevrilməsi isə Azərbaycanın sarsılmazlığını təmin edən əsas sütunlardan biridir. Bu gün Azərbaycanın əldə etdiyi uğurların əsasında məhz Ümummilli Liderin 30 il öncə qəbul etdiyi qərarların nəticəsi olaraq müəyyən olunmuş strateji xəttin uğurla davam etdirilməsi dayanır. İndi Azərbaycan 30 il önceki ölkə və dövlət deyil. Ancaq Azərbaycan xalqı 30 il öncə olduğu kimi, bu gün də öz müdrikliyini, tarixinə və milli dəyərlərinə sədaqətini qoruyub saxlayır. Sadəcə bir fərq var, indi o qalib xalqdır. 1993-cü ildə öz böyük Liderini hakimiyyətə dəvət edən Azərbaycan xalqı onun müəyyən etdiyi yolun, siyasi və milli idealların təhlükəsizliyini, rifahını və gələcəyini təmin edəcəyinə 30 il bundan öncə olduğu kimi inanır. Azərbaycana 2020-ci ilin 44 günlük Vətən müharibəsində tarixi Zəfəri qazandıran ən başlıca amil məhz bu inam, bu sədaqətdir. 15 İyun Milli Qurtuluş Gününün tarixi və ictimai-siyasi məzmunu həm də buna görə milli əhəmiyyət kəsb edir.



FELYETON

# "Barber shop"

Küçəmizdə bir kişiylə rastlaşdım. Gördüm ey, ora baxır, bura baxır, sözlü adama oxşayır. Gözləri bir nəfər axtarır ki, sualını verib cavabını ala. Camaat da elə sürətlə ötür ki, kişi çatdırıb soruşa bilmir.

Yanından ötəndə hiss etdim ki, məndən nə isə soruşmaq fikri yoxdur, lakin ağsaqqal kişi olduğu üçün mən dayanıb, "əmi, sizə nə lazımdır",- dedim. Əmi də dedi ki, ay qızım, rayondan gəlmişəm, burada qızımgildə qonağam. Dünən enmişdim bir hava alam, bir də görüm buralarda bərbər var, saçsaqqalımı düzəltdirəm. Bax elə bu küçə idi, burada mən bərbər gördüm, indi nə qədər baxıram görmürəm axı.

Həmin dəqiqə anladım bu əminin problemini. Axı bizim küçənin həm o başında, həm də bu başında bərbər var. O başdakının qarşısında "Bərbər", bu başdakının qarşısında isə "Barber shop" yazılıb. Bu küçə də dairəvi şəkildədir. Nabələd adam bunu bilmir, ona görə də bu kişi kimi qalır məəttəl. Anladım ki, əmi dünən o başda gəzirmiş, orada "Bərbər" görüb, düşünüb ki, sabah gəlib saç-saqqalımı düzəltdirərəm. Bu da həmin sabah, kişi nə qədər axtarır, tapmır. Yaşlı adamdı da, nə etsin?

Hə, kişi dayanıb düz "Barber shop"un qarşısında, deyir mən dünən bax elə burada görgüm "Bərbər"i, ay bala, indi axı burada ayrı şey yazılıb. Başladı hərifləyib oxumağa: bu nə deməkdir axi? 70 yaşım var, birinci dəfədir bu sözə rast gəlirəm. Ay bala, deyəsən, buranı səhv yazıblar ey...

Məsələ aydın idi. Dedim ki, ay əmi, bərbər lazım deyil sənə, elə buradır da. Əmi də dedi ki, yox ey, mən dünən axı burada bərbər görmüşdüm. Dedim ay əmi, saçsaqqalını kəsdirmək istəmirsən? Dedi, hə. Dedim, gəl bu qapıdan keç içəriyə, burada etsinlər.

Əmi baxır mənə. Həm də təəccüblə baxır. Sanki mən onu aldadırmışam kimi baxır...

Yazıq kişi, vallah, o qədər narahat oldum ki. Ay qardaş, yaşlı adamdı da, bunun başına niyə bu oyunları açırsınız? O "obyektin" qarşısına "Bərbər" yazanda nə olardı ki? Qoy biri küçənin o başında, biri də bu başında olsun da, nə olacaq ki...

Vallah, mən hər gün o küçədən keçirəm, "Bərbər"də "Barber shop"dən çox adam olur. İndi bu bərbərlərin "dili" dəyişəndə nə olur ki?

Bu kişi də rayondan durub gəlib şəhərə qonaq. Qalıb "Bərbər"lə "Barber shop"un arasında, anlaya da bilmir ki, ikisi də əslində eyni yerdir, sadəcə biri "intelligentni"dir.

Etmədim tənbəllik. "Barber shop"un qapısını döymək istəyəndə kişi, yox-yox, ay bala, bura ora deyil. Mənə bura lazım deyil, dedi və üzünü çevirib getmək istəyəndə, dedim ay əmi, gəl, gəl, gedək. Düşdüm kişinin yanına, düz getdik çıxdıq "Bərbər"ə. Kişi başını yuxarı qaldırıb "Bərbər"i görmədi, başladı uşaq kimi sevinməyə. İndi dayanmadan-durmadan mənə duadır ki, edir:

-Ay qızım, səni xoşbəxt olasan. Mən dünən buranı görmüşdüm bax. Elə səhərdən də buranı axtarırdım. Hə, bax, mən bura getmək istəyirəm.

Kişi ilə sağollaşdım, o bərbərə getdi, mən də geriyə döndüm. Gəlib o "Barber shop"un qarşısından keçəndə başımı qaldırdım, o lövhəni bir də oxudum və başladım öz-özümə danışmağa: can ay dilim, gözəl dilim, dərdli dilim. Kaşki dilin olardı, dil açıb dərdlərindən danışardın...

***Mətanət Məmmədova***

Təhlil

# İsveçrə sammiti Ukraynaya nə vəd edir?

*Dünya ölkələrinin mövqeləri*



2024-cü il iyunun 15-16-da İsveçrədə keçirilməsi planlaşdırılan sülh konfransı, davam etməkdə olan münaqişələr üçün əhəmiyyət kəsb edir. Rusiyanın dəvət edilmədiyi sülh Sammitində 107 ölkə və təşkilatın iştirak edəcəyini açıqlanıb. ABŞ prezidenti Co Baydenin İsveçrədəki sammitdə iştirak etməsi Vladimir Zelenski tərəfindən israrla istənilsə də Baydenin yerinə vitse-prezident Kamala Harrisin iştirak edəcəyi deyilir. Ancaq ABŞ-la yanaşı bir çox Avropa ölkəsinin də qatılacağı bu sammitə Çinin iştirak edib- etməməsi sual altında qalır. Belə ki, Ukrayna krizini həll etmək üçün daim sülh danışıqlarını təşviq edən Çin, bütün tərəflərin bərabər iştirakı ilə həm Rusiya, həm də Ukrayna tərəfindən tanınan beynəlxalq sülh konfransı keçirilməsini təklif edirdi. Lakin Rusiyanın İsveçrədəki konfransa dəvət edilməməsindən sonra Çinin sammitdə iştirakı gözlənilmir.



Ukrayna tərəfi isə İsveçrədə keçiriləcək sülh sammitində daha çox ölkənin iştirak etməsi üçün səy göstərir. Bununla əlaqədar, Zelenski 2024-cü il iyunun 2-də Sinqapurda keçirilən Şanqri-La Dialoqunda xarici liderlərlə görüşüb və İsveçrədəki sammitdə iştirakın genişləndirilməsi üçün diplomatik yola əl atıb. Sinqapurda Çin nümayəndə heyəti ilə görüşə bilmədiyinə və Pekinin İsveçrədə təmsil olunmayacağına görə təəssüfləndiyini bildirən Zelenski, "Çin təəssüf ki, ölkələrin sülh sammitinə gəlməsinin qarşısını almaq üçün sıx səy göstərir" deyib. Zelenski həmçinin bildirib ki, Çinin Rusiyaya dəstəyi müharibəni uzadacaq.



Ukraynada müharibənin başlamasından üç il keçsə də, böhran Cənub-Şərqi Asiyada hökumətlər üçün də böyük narahatlıq mənbəyi olaraq qalır. Buna görə də Asiya dövlətləri münaqişə ilə yaxından maraqlanır. Zelenski 2 iyundakı sülh sammitində Asiya dövlətlərinə iştirakına görə təşəkkür edib və bu addımı sülhə nail olmaq yolunda "vacib mesaj" kimi qiymətləndirib. İsveçrədəki sammitdəysə Tailand, Filippin, Sinqapur və Şərqi Timorun da iştirak edəcəyi bildirilir. Digər tərəfdən, Rusiya ilə yaxın əlaqələri olan Myanma, Vyetnam və Laosun İsveçrədəki konfransa qatılması mümkün görünmür. Bu kontekstdə Pakistanın da görüşə qatılmayacağı və ya "neytrallığı" qorumaq üçün simvolik nümayəndə göndərəcəyi təxmin edilir. Eynilə Hindistan da görüşə yalnız simvolik nümayəndə göndərəcəyini açıqlayıb. Hindistan kimi Braziliyanın da konfransa simvolik nümayəndə heyəti göndərəcəyini söyləmək olar. Səudiyyə Ərəbistan da sülh sammitində iştirak etməyəcəyini açıqlayıb. Digər tərəfdən, Macarıstanın iştirakı ilə bağlı qeyri-müəyyənlik davam edir. Beləliklə ölkələrinin İsveçrədəki sammitdə iştirak etməməsi ilə bağlı fərqli iddialar var. Bunun əsas səbəbi kimi Rusiyanın sammitə dəvət edilməməsini söyləmək olar. Nəticə olaraq dünya ölkələri, bu cür beynəlxalq böhranların həllində ədalətli və şəffaf prosesin aparılmasını dəstəkləsə də adətən öz milli maraqlarını düşünərək irəli addım atmaqdan çəkinirlər.

Çin, Ukrayna böhranı ilə bağlı 2023-cü ilin fevralında ictimaiyyətə açıqladığı 12 maddəlik rəy sənədində ölkənin ərazi bütövlüyü və suverenliyinin toxunulmazlığını vurğulamışdı. Buna əsaslanaraq, Çinin Rusiyaya tam dəstək verdiyini söyləmək olmaz. 16 aprel 2024-cü ildə Pekində Almaniya kansleri Olaf Şolzu qəbul edən Xi Jinping Ukrayna böhranının həlli ilə bağlı 4 yeni prinsip elan etmişdi. Bu kontekstdə Çin, dünya ölkələrini "eqoist maraqlardan uzaqlaşmağa və münaqişəni sakitləşdirərək, gərginliyi artıracaq addımlardan qaçıb bu münaqişənin dünya iqtisadiyyatına təsirləri minimuma endirməklə sülh və sabitliyi bərpa etməyə" çağırıb.



Nəhayət, vurğulamaq lazımdır ki, İsveçrədəki sammit sülh danışıqlarının bir hissəsi olmaqdansa, Qərbin Ukraynaya dəstəyini artıracaq siyasi həmrəylik platformasına çevrilir. Daha öncə də vurğuladığımız kimi Rusiyanın iştirak etmədiyi konfransda digər ölkələrin iştirakı məhdud və ya simvolik olacaq. Ona görə də məsələnin həllinə dair ümidlər də zəifləyəcək. Çinin əsas narahatlığı da elə bununla bağlıdır. Bir sözlə, qərb əgər həqiqətən sülh istəyirsə Rusiyanın da iştirak edəcəyi beynəlxalq sülh sammitinə ehtiyac var. Əks halda, Çin və Rusiyanın nüfuzlu olduğu region ölkələrinin İsveçrədə keçiriləcək sammitdə iştirakı məhdudlaşacaq. Bu da sammitin uğuruna böyük təsir göstərəcək. Bütün bunlara əsasən görünən odur ki, qərb Rusiya ilə uzlaşmaq yox onu daha da zəiflətmək arzusundadır. Eyni zamanda Ukraynanın 10 bəndlik sülh planının ön plana çıxacağı sammit, Qərb Dünyasının daxilində müttəfiqləşməni artırmaq səylərinin bir hissəsi kimi qiymətləndirilə bilər.

***Zərdüşt Quluzadə***

# “COP29-un özünəməxsus tələbləri var”






**“COP29 demək olar ki, dünya birliyi qarşısında duran ən aktual gündəliyi meydana gətirir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Tofiq Abbasov deyib.**

O bildirib ki, söhbət iqlim dəyişikliyinə qarşı birgə səylərlə mübarizə aparmağımızdır: ”Çünki biz bilirik ki, əgər planetin bir hissəsində təbii fəlakət, ağır vəziyyət yaranırsa, o, bütün planetin iqliminə, ətraf mühitinə sirayət edir. Bu baxımdan COP29-un özünəməxsus tələbləri var. İlk növbədə bu, yaşıl enerjiyə keçiddir. Yaşıl enerjiyə keçidlə bağlı COP28-də çox böyük narazılıqlar oldu. Çünki rəsmi Əbu-Dabi tədbir əsnasında çalışdı ki, ənənəvi enerji mənbələrinin istismarı ilə bağlı yeni razılaşmalar əldə etsin. Bu, iştirakçıların çoxunun ürəyincə olmadı. Çünki bir yandan tendensiya ona doğru gedir ki, neft, qaz mənbələrindən istifadənin həcmi azalsın ki, yaşıl enerjiyə, bərpa olunan enerji mənbələrinin üstünlüyünə nail olaq. Ancaq belə məqamda Ərəb Əmirlikləri özlərinin korporativ maraqları üzərində çalışmağa başladılar. COP28-in meydanlarında məhz yeni razılaşmalar əldə etdilər. Ona görə də onlar tənqid atəşinə tutuldular.

Azərbaycan isə artıq COP29-u qəbul etməyə hazırlaşarkən demək olar ki, yaşıl enerjiyə keçidimizi dönməz vəziyyətə gətirib çıxarırıq. Birincisi, azad olunmuş ərazilərimizdə ancaq bərpa olunan enerji mənbələrindən istifadə edəcəyik. Söhbət su, külək, günəş enerjisindən gedir ki, artıq qurğular təmin olunur. Aydın planımız var. Dövlət başçısı Prezident İlham Əliyevin qayəsi, məqsədi ondan ibarətdir ki, 30-35-ci ilə qədər Qarabağ bölgəsində, Şərqi Zəngəzurda karbon emissiyası sıfırlansın. Bu, özünəməxsus bir normaya çevriləcək. Çünki Azərbaycanın belə imkanları var. Biz qəti əminik ki, buna nail ola biləcəyik. COP29-u Azərbaycanda keçirməklə dünya birliyinə səslənirik və göstəririk ki, əgər biz belə qayğıları gündəmə gətiririksə, məqsədlərimizi müəyyən edириksə, deməli, bundan istifadə etmək vacibdir. Bizim yolumuzla digərləri də gedə bilər. Ona görə də hesab edirəm ki, Azərbaycan dövlətinin bu istiqamətdə çox böyük təşəbbüskarlığı var. Biz BƏƏ, Səudiyyə Ərəbistanının aparıcı şirkətləri ilə bu istiqamətlərin hamısında əməli işlərimizi aparırıq. Texnoloji baxımdan öz suverenliyimizi bərpa edirik. Nəhayət, dünya birliyinə də göstərdik ki, yol budur. Əlbəttə ki, ənənəvi enerji mənbələri hələ ki, istismar olunur, uzun müddət də olacaq. Ancaq həcmini getdikcə yaşıl enerji xeyrinə azaltmaq lazımdır. Bilirsiniz ki, Qoşulmama Hərəkatında bizim 4 il sədrliyimiz beynəlmiləl mühitdə olan məsələlərin həllinə şərait yaratdı. Azərbaycan burada təşəbbüskarlıqla çıxış etdi ki, əziyyət çəkən xalqlara, dövlətlərə birlikdə kömək edək. BMT səviyyəsində bu məsələ böyük razılıqla qarşılanmışdı. Beynəlxalq Humanitar forumun özü dünyada olan geosiyasi, geoiqtisadi gərginliyin azalmasına hesablanmış tədbirdir. Bu forum ondan xəbər verir ki, mübahisəli məsələlər var, amma onlara köklənməyək, əməkdaşlığa köklənək. Bunun üçün ən yaxşı sahə humanitar sahədir. Çünki o, ilk növbədə gərginliyi azaltmağa imkanlar yaradır, digər tərəfdən xalqları bir-birinə yaxınlaşdırır, onların vətəndaş cəmiyyətlərini stimullaşdırır ki, bir-birlərilə yaxın əlaqədə olsunlar. Beləcə də, dialoq formatı genişlənsin, bununla da biz bir çox məsələlərin həllinə nail ola bilək.

Formula1-ə isə ictimai qüvvələr sırasında olan münasibət birmənalı deyil. Ancaq bu, ölkəmizin dünya səviyyəsində tanınmasına verilən əsas nailiyyətlərdən biridir. Birincisi, texnoloji baxımdan görürük ki, bu, çox əhəmiyyət kəsb edir. Yeni maşınlar, yeni mühərriklər və sair, bunların hamısını biz istifadə edirik. Sonda onlardan yararlanırıq, dünya birliyinə göstəririk ki, Azərbaycan mürəkkəb infrastruktur baxımından tədbirlərin keçirilməsinə hazırdır. Biz bunlarla öyünürük. Çünki hər bir ölkəyə belə imkan verilmir. Bəli, bunların böyük maliyyə tutumu var. Digər tərəfdən ancaq idman tədbirlərinə xas olan böyük maraq doğuran qığılcımı var. Nəhayət, bizim də bu tədbirlərdə pilotlarımız yetişir. Hələ ki, dünya səviyyəsində məşhur deyillər. Niyə də olmasın? Buna can atmaq lazımdır. Bu məsələlərin hamısının birmənalı şərhi yoxdur. Ancaq əsas məqam ondan ibarətdir ki, bu proseslərdə çalışırıq ki, dünyadan geri qalmayaq. Göstərək ki, bizim də ölkəmizdə inkişaf meyilləri, oturuşmuş tərzdə özünü büruzə verir. Biz həm də dünyaya açığıq.”

***Söylü Ağazadə***

# ”Qarabağ universiteti universitetlər arasında rəqabəti gücləndirəcək”




“Təhsil hər bir ölkənin gələcəyini müəyyənləşdirən, onun inkişafını şərtləndirən vasitə olduğu üçün hər birimiz hər zaman təhsildə baş verənləri, təhsilin uğurları, çatışmazlıq və təhsildə görmək istədiklərimizi dilə gətiririk. Təbii ki, yeni tədris ilində təhsildə hansı dəyişikliklərin olacağı da insanlarımızı düşündürür. Təhsildə yeniliklərin olması çoxmərhələli bir prosesdir. Əvvəlki illərdə təhsilin inkişafı naminə həyata keçirilən işlər, islahatlar 2024-2025-ci tədris ilində də davam edəcək. Bütövlükdə məzmunla bağlı həyata keçirilən işlərin davamını görəcəyik. Təhsilin keyfiyyətinin artırılması və təhsildə aparılan struktur dəyişiklikləri ilə bağlı da gözləntilərimiz mövcuddur”. Bunu SİA-ya açıqlamasında fəlsəfə üzrə fəlsəfə doktoru, Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü İlqar Orucov deyib. O bildirib ki, bu il Elm və Təhsil Nazirliyinin yeni əsasnaməsi qəbul olundu: ”Strukturda ciddi şəkildə dəyişikliklər oldu və bu işlərin nəticələrini növbəti tədris ilində görəcəyik. Təhsilin keyfiyyətinin artırılması ilə bağlı məsələ bu gün hər birimizi düşündürən, narahat edən məsələdir. Müəllimlərin işə qəbulundan tutmuş məktəb rəhbərliyinin işə qəbulu, eyni zamanda müəllimlərin sertifikasiya prosesinin davam etdirilməsi də təhsilin keyfiyyətinə təsir göstərən amillər sırasında yer alır. Həmçinin ali təhsil müəssisələrində tədrisin gücləndirilməsi də gözləntilərimiz arasında yer alır. Bu il fəaliyyətə başlayacaq Qarabağ Universiteti ilə bağlı gözləntilərimiz çoxdur. Çünki bu universitet bizim arzularımızın həyata keçməsidir və təhsilimizə mühüm töhfə verəcək”. Məsələ ilə bağlı təhsil eksperti Kamran Əsədov fikirlərini bölüşüb:

”Ali təhsil müəssisələrinin qəbul imtahanlarının birinci mərhələsi başa çatdı. Həm buraxılış imtahanı, həm də qəbul imtahanlarının nəticələrinə baxaraq deyə bilərik ki, bu il Azərbaycanda tələbə olanların sayında kəskin artım müşahidə olunacaq. Belə ki, artıq qəbul plan yeri artaraq, 60 min olması proqnozlaşdırılır. Qeyd edim ki, 2022-ci ildə bu rəqəm 55800 idi. Əvvəlki illərlə müqayisə etsək, görərik ki, bu il ali məktəblərə qəbul olmaq istəyənlərin də sayında artım var.

Bu il Xankəndində Qarabağ universiteti fəaliyyətə başlayacaq və 1200 tələbənin təhsil alması proqnozlaşdırılır. Hesab edirəm ki, bu çox ciddi məsələdir. Çünki hazırda Azərbaycanın tarixi torpaqlarında ali təhsilin bərpa olunması burada gələcək kadrların hazırlanmasına müsbət təsirini göstərəcək. Qarabağ universitetinin fəaliyyətə başlaması ölkəmizdə universitetlər arasında rəqabəti gücləndirəcək”.

***Səbinə Hüseynli***



İLHAM

# ”Pa atonnan kolxozçu da deputat kimi danışır”

**“Əhməd haradadır” kinofilmində belə bir epizod var: Nərgiz xala Zülümovun sinəsindən itələyib, şəstlə və iddialı forma da müdirin kabinetinə keçir. Gözləmədiyi təpkidən duruxan Zülümov gözlərini döyə-döyə Nərgiz xalanın arxasınca baxıb, sonra da yanında dayanan şəxsə ”deputatdı, yuxarıdan gəlib” deyə sual edincə ”xeyir kolxozdan gəlib” cavabını eşidir. Zülümov başını bulayıb ”pa atonnan kolxozçu da deputat kimi danışır” deyə gileylənir. O zaman üçün gileylənməyə dəyərdi, çünki fəhlənin, kolxozçunun dəyəri və hörməti vardı.**

Kimsə harasa işə düzəlmək istəyirdisə, tərcümeyi-halında ”kolxozçu ailəsində doğulmuşam” fikrindən geninə boluna istifadə edirdi. İşəgötürən bu sözlərdən xoşlanır və seçimdə digərləri ilə müqayisə də kolxozçu ailəsində doğulana üstünlük verilirdi. İndi isə payız gəlməmiş saralan yarpaqlar kimi, kolxozçularında sifətləri saralıb, kefləri aşağı düşüb. Heç onlara salam kəlam edənlər də olmur. Nədən ki, fəhlənin, kolxozçunun pulu parası yoxdur, geyimi keçimi də ki, çoxlarına xoş deyil. İndiki dövr də pullu, paralı sahibkarların, biznesmenlərin, vəzifə mənsublarının dövranıdı. Ona görə də, çoxları biznesə girişir, vəzifə pillələrində üzü yuxarıya doğru irəliləməyə çalışır. Yəni insanlar harada çox pul qazanmaq imkanı varsa, oraya can atırlar. Deputat olmaq istəyənlərin sayı da kifayət qədərdir.

Bu gün kimin evində 5 min manatdan yuxarı pulu varsa deputatlıq marafonuna qoşulmağa hazırlaşır. İşi-gücü olmayan, ancaq hansısa vəzifə də olmuş şəxslər də deputat olmaq iddiasındadır. Siyasi partiya funksionerləri, QHT rəhbərləri, media mənsubları, şou əhli, elmdə var-gəl edənlər, bir sözlə cəmiyyətin bütün iddialı və hikkəli təbəqəsi deputat olub, cibində ən azı 5 il mandat gəzdirmək arzusundadır. İnanın 98 nəfərlə söhbət əsnasında və telefon zəngləri zamanı məlum olur ki, onlar Milli Məclisə keçiriləcək seçkilər də namizədliklərini irəli sürmək fikrindədilər. Məndən onlara dəstək olmaları xahiş edənlər də olub. Təbii ki, mən də hər kəsə ”xeyirli olsun” deməklə yanaşı, ”sən əsl deputatsan ki, varsan” deməklə uğurlar arzulayıram.

Elə şəxslər də var ki, deputatlıqla kifayətlənməyib, indidən komitə sədrlərinin yerinə göz dikirlər, deyirlər ki, mütləq komitə sədri olacağıq. Olsunlar, arzulara və xəyallara kimdir ki, sədd yaradan. Birdəki qanunla hər kəs deputatlığa namizədliyini irəli sürə bilər. Pulları varsa onları da xərcləmək də problem yoxdur. Qapı-qapı düşüb insanlara yağlı vədlər verməklə onlardan səs istəmək də qəbahət deyil. Sadəcə əmmaqulusu ondan ibarətdir ki, qanunverici orqan çox mötəbər bir yerdir. Deputat olmaq üçün səlis danışıq qabiliyyətin olmalıdır, seçicilərin istəklərinə uyğun olaraq təşəbbüslərlə çıxış edib, ideyalar, təkliflər irəli sürməyi bacarmalısan. Qanuvericilik aktlarının müzakirəsində fəallıq göstərib, mükəmməl qanun layihəsinin qəbulunda iştirak etməlisən. Bilik və savadınla fərqlənməyə çalışmalısan. Yəni nümunəvi bir şəxs olaraq seçilənlərdən olmalısan.

Təəssüflər olsun mənəm-mənəmlikdən çıxış edən çoxluq xəyallarla, relliqları səhv salırlar. Anlamırlar ki, gerçək həyat və fəaliyyət mövcuddur. Razılaşaq ki, bu gün Milli Məclisdə elə deputalarımız var ki, çox passivdirlər. Qanunların müzakirəsi zamanı ağızlarını açıb, danışmırlar. Çünki potensialları yoxdur, təşəbbüskar deyillər, bilik baxımından da ciddi problemlərə malikdirlər. Söz yox ki, belə şəxslər cəmiyyətin inkişafına heç bir töhvə verə bilməzlər. Seçicilərinin də maraqlarını, problem və qayğılarını həll etmək də acizdirlər. Bu baxımdan bəlkə də hər kəs hansısa yolla deputat ola bilər, lakin onların fəaliyyətləri ”get naxıra, gəl axura” məsələndən fərqlənməyəcək.

# Erməni terroru insanlığı təhdid altında saxlamağa çalışır

***Artıq dünya elm mərkəzlərinin və peşəkar təhlilçilərin gəldiyi qənaətə görə, erməni terroru dünya üçün ən qorxulu və təhlükəli terror mənbəyidir. Bu terror təşkilatından xilas olmaq hələ ki mümkün deyil. Çünki erməni terror təşkilatının müxtəlif dövlətlərdə, hətta siyasi hakimiyyətlər də himayədarları var. Bu baxımdan erməni terror təşkilatını ləğv etmək, sıradan çıxartmaq mümkün deyil. Nəticə isə ağır və acınacaqlıdır. Hər il dünyanın müxtəlif şəhər və kəndlərində, qəsəbələrində erməni terroru nəticəsində insanlar öldürülür, binalar, tarixi memarlıq nümunələri sıradan çıxır.***




Azərbaycan dövləti və xalqı erməni terrorundan ən çox əziyyət çəkən xalqlardandır. Məhz erməni vəhşi terror təşkilatlarının törətdiyi terror aktları nəticəsində son iki yüz il də iki milyondan çox azərbaycanlı həyatını itirib, minlərlə kənd, qəsəbə və şəhər dağıdılıb, yüzlərlə tarixi abidə, memarlıq nümunəsi yer üzündən silinib. Bununla yanaşı xarici ağalarından hərbi, siyasi dəstək alan erməni terror təşkilatları zor gücünə tarixi Azərbaycan şəhəri olan İrəvanı özünküləşdirdilər, Qafanı, Gorusu, Dərələyəzi və digər onlarla yaşayış məskənimizi işğal etdilər. Bu baxımdan ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi xalqımıza böyük bəlalar gətirdi. Erməni toplumu bəzi güclərin dəstəyi ilə Azərbaycan ərazilərinə köçürülməsi prosesi on doqquzuncu əsrin sonu iyirminci əsrin əvvəllərin də daha sürətlə aparılmışdır.

Nəticə də XX əsrin əvvəllərində xarici ölkələrdən köçürülən ermənilərin sayının bir milyona çatması bölgədə demokratik vəziyyətin tamamilə dəyişməsinə səbəb olmuşdur. Erməni daşnak millətçilərinin "böyük Ermənistan" ideyasını həyata keçirmələri ilə bağlı təbliğatları Qafqaz bölgəsini milli qırğınlara gətirib çıxarmışdır. 1905-1906-cı illərdə Bakıda, Naxçıvanda, İrəvanda, Zəngəzurda, Gəncədə və Cənubi Azərbaycanda bu qırğınlar davam etmişdir. Erməni daşnaq quldur dəstələri 1905-ci il noyabrın 28-də Qarabağ bölgəsinin şəhər və kəndlərini yandıraraq, uşaqlara, qadınlara və qocalara qarşı görünməmiş vəhşiliklər törətmişlər.

